

*İbrahim YUSİFOĞLU*

# DÜNYANI QORUYAQ SOYQIRIMLARDAN

Soyqırım haqqında düşünəndə mən,
Dilimdə söz donur, damarımda qan.
Bir ağrı, inilti keçir içimdən,
Bəlalar çəkmişik soyqırımlardan.

Kədərdi, əzabdı, qorxuncdu, bəddi,
Sinə də qovrulan dərddi soyqırım.
Gözləmir qanunu, gözləmir həddi,
Gavur ermənidi- şərdi soyqırım.

Adı Şaumyandı, soyadı Vazgen,
Yurdumda daş üstə daşı qoymadı.
Təkqulaq cəlladdı- geni həmən gen,
Türk qanı tökməkdən dinsiz doymadı.

Aşkarda, daldada illər boyunca,
Döndərdi səmtini çayların, gölün.
Qılıncla dəyişdi adın, soyun da
Əsir götürdüyü obanın, çölün.

Talandı neçə yol Naxçıvan, Gəncə,
Od tutdu Şamaxı Bakıya qədər.
Uşağı, qocanı öldürüb öncə,
Tarixə əbədi əkdi qəm-kədər.

Döndü qasırğaya torpağımızda,
Evlərin, qəlblərin çırağı söndü,
Yaman qəddar oldu Xocalımızda,
Bütün soyqırımlar yalana döndü.

Elə keçiribdir caynaqlarına,
Bu gün Odlar Yurdu para-paradır.
Güvənib arxalı ” dayılarına”,
”Böyük Ermənistan” qurub-yaradır.

Soyqırım haqqında danışanda mən,
Dilimdə söz coşur, damarımda qan.
İçimə bir haray dolur qeybdən:
-Dünyanı qoruyaq soyqırımlardan!

Ədalət.-2019.-30 mart.-S.11.